NURƏNGİZ GÜN
BEYNƏLXALQ
ŞEİR ÖDÜLÜ

NURANGIZ GUN
INTERNATIONAL
POETRY PRİZE

Baku 2020 Baku

2020
Nurəngiz Gün
Beynəlxalq Şeir Ödülü
Antologiyası

Nəşrin məsləhətçiləri:
Jalə Əliyeva
filologiya elmləri doktoru, professor,
Seymur Bayramov

Tərcüməçilər:
Səlim Babullaoğlu (redaktor),
Nikol Varderam,
İvan Pilkin,
Lena Rut

Dizayn və səhifələmə:
Emil Camalov

Korrektor:
Həcər Telmanqızı

Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində nəşrə hazırlanıb.
Həsən bəy Zərdabi İrs Mərkəzində çap olunub.
Bütün hüquqlar müvafiq qanunlarla qorunur.

© Jalə Əliyeva, 2020
© Həsən bəy Zərdabi İrs Mərkəzi, 2020
© Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi, 2020

ISBN:

Tiraj:
Nəşriyyat:

Laura Qaravaqlia, İTALİYA

Laura Qaravaqlia - 1956-cı ildə Milanda anada olub. Komoda yaşayır. Şair, jurnalist, Komo Poeziya Evinin qurucusu və rəhbəri, "Şeirsəl Avropa" / "Europa in Versi" Beynəlxalq Poeziya Festivalının direktorudur. Uzun müddət "Il Giornale", "Il Corriere di Como", "L'Ordine" qəzetlərinin mədəniyyət əlavələri və şöbələri ilə əməkdaşlıq edib. "Həyat fraqmentləri", "Kəpənəklər və daşlar", "Qoz ləpəsinin simmetriyası", "Yuxarı axınlar" ,"Əşyaların diriliyi", "Saylar və ulduzlar" adlı şeir kitablarının müəllifidir. Türk, yapon, rumın, alban, serb, macar, Ukrayna və b. dillərdə kitabları nəşr edilib. Bütövlükdə əsərləri onlarla dilə çevrilib, nüfuzlu jurnal və ədəbiyyat saytlarında yer alıb. Mario Luzi, Antonio Fogazzaro ədəbi ödüllərinə, habelə 2017-ci ildə üzvü olduğu Avropa Elm, Sənət və Ədəbiyyat Akademiyasının mükafatına layiq görülüb. İtaliya və İtaliya–İsveçrə PEN təşkilatlarının, Dünya Şeir Hərəkatının üzvüdür.

Laura Qaravaqlianın milliyətindən asılı olmayaraq bütün insanlığa, onun problemlərinə qarşı həssas olan poeziyası, eyni zamanda vərdiş etdiyimiz gündəlik hadisələrə elmi yanaşma ilə fərqlidir, orijinaldır.

Mükafatın təqdimetmə mərasimində Laura Qaravaqlianın çıxışı

Hər vaxtınız xeyir. Mən Laura Qaravaqliayam. İtalyanam. Şair və jurnalist, Komo Poeziya Evinin / La Casa della Poesia di Como qurucusu və prezidenti, "Şeirsəl Avropa" / "Europa in Versi" Beynəlxalq Poeziya Festivalının direktoruyam.

Azərbaycanlı oxucuları salamlayıram, şeir, bütünlükdə ədəbiyyat naminə bu mədəni mübadiləni alqışlayıram. Hesab edirəm ki, poeziya daha yaxşı dünya üçün insanlar arasındakı etibarlı körpülərdən biridir. Çox şadam ki, görkəmli Azərbaycan şairəsi Nurəngiz Günün adı ilə bağlı bu mükafatı ilk alanların sırasındayam və bu mənim üçün böyük şərəfdir.

“Barışıq olmayacaq” dedin mənə...

“Barışıq olmayacaq” dedin mənə
Və sonra yuxarı baxdın.
Amma peşmanlıq içimi yandırır,
Qibtə caynaqlarını bədənimə sancır.
Alma və çörək olsaydı,
eşqi ağızdolusu dişlərdim,
doldurardım mədəmi.
Kədərin kvant dalğaları üstümüzdə dolaşarkən
qoz ləpələri qədər bərabər paylaşılmaq
və yaxın olmaq hələ də mümkündür.

Həyatı yalayır zaman

Həyatı yalayır zaman,
dərisini qatı damlalarla əridir.
Bəzən iz buraxır,
ləkələr solur sonradan.
Günün artıq-urtuğunu toplayıram yerdən,
ətini sümüyəcən ayırıram sözlərdən,
iliyini sümürürəm bacardığım qədər.

"Qoz ləpəsinin simmetriyası" kitabından
("Edizioni Stampa", 2009, 2014)

İndiki zaman

Günün sınma nöqtələrində
sən də kainatın xətlərini axtarırsanmı?
Minaçiçəyi olan güldanla pəncərə arasındakı
ən uca nöqtədədirsə günəş,
nədən dəyişir günorta kölgələr pilləkəndə
bu yoxluqda?
Bəlkə, çəmənlikdəki işıq konusu
gələcək və keçmiş arasnda nəyisə qarışdırır,
və indiki zamanı saraldır?

Bəzən axırda...

Bəzən axırda
bir qədəh şərab içərkən
qalan kim, gedən kim bilmədən
qəhvə falında kədəri sezirəm.
Bədəninin ən çox
sözlərə şəkil verən,
Yer üzü ilə bəslənən
o ağzını sevirəm.

“Yuxarı axınlar” kitabından,
(“Editore CFR”,2013)

Analar

2017-ci ilin avqustunda Barselonadakı terakt zamanı qətl edilmiş gənclərin xatirəsinə

Sənə səslənirəm
qadın və ana kimi.
Çünki sən də ana və qadınsan,
sən də xəyal qurmadan yaşamaq,
ağrının zülmətində yürümək nədir
bilirsən, anlayırsan.
Hə, sənə də tanışdır, mənə də
içindən yıxılmaq,
qızmar yay günü oğlunu itirmək,
ətrafda həyat çağlarkən,
işıq gündüzü uzadarkən
ölüm bərabərində addımlayırdı,
və sən ona toxuna bilmirdin.
Bəli, sən də bilmirdin, mən də,
bu bəyaz yolda
əski bir kinin qəzəblə
iki həyata necə son qoyduğunu.
İyirmi yaşında, günəş altında ölmək
çox adi və dəhşətlidir.
Oğlun uzaqdaydı və döndüyü zaman
necə dəyişdiyinin fərqindəydin.
Amma bilirdin, mən də bilirdim:
Tanrı adına öldürmək
boşluqda quyu qazmaq kimi bir şeydir.
İndi hər şey artıqlamasıyla...
Hər şey həqiqətdən uzaq...
Ən sevdiyimiz otaqlar qaranlıqda.
Cavabsız qalmış suallar ürəyi didir.
Xatirələr bizi yeyib bitirir.

Poeziya

Bəzən sözlər gözə çevrilərlər –
Dünyaya məşəl kimi zillənərlər:
Dərinliklərdə fərqli uzaqlar taparlar;
Amma bəzən də havadan asılı qalarlar,
Və baxa bilməzlər həyatın künc-bucağına.
Amma indi sözlər işıq şüalarında
uçuşan toz kimidirlər.

"Əşyaların diriliyi" kitabından,
("Puntoacapo Editrice", 2020)

Yusif

Yusif anasının yanında, yerdən yarıuzalı oturmuşdu.
Günəşin şüası uşağın gözünü qamaşdırır.
Səhərdən göydə bir şimşək, bir partlayış vardı:
bəlkə, bir fırtınaydı, amma yağışsız bu fırtına
torpağı yeraltı sularda batırırdı.
Müharibə – mənanın sərhədini yıxır ilk əvvəl.

Bəlkə, bir oyundu,
anası əllərini qarnı üstündə çarpazlayıb uzanmışdı,
neçə saatdı ki durmurdu.
Bu yoxsul evin əşyaları da yox oldu yerin altında.

Yusif qanlı qum dağlarından o yanda
qardaşının və atasının qətl edildiklərini bilmirdi.
Anası mərhəmət dolu nağıllar danışardı həmişə.
Anasının səsini gözləyir Yusif.

Tərcümə: Səlim Babullaoğlu, Nikola Verderam